# Novruz çərşənbələri

Bu ilin ikinci çərşənbəsi boz ayın qismətinə düşmüşdür.

Boz ayda qeyd edilən bu çərşənbə xalq arasında Xəbərçi çərşənbə, Üskü çərşənbə, Addı çərşənbə kimi tanınan Od çərşənbəsidir. Bu çərşənbə qədim insanların Günəşə, oda olan inamından irəli gəlir. Adət-ənənəyə görə, bu gün tonqal qalayıb, alovun üzərindən tullanmaqla daxildə olan bütün çirkabı və azar- bezarları yandırırlar.

Yel çərşənbəsi günündə əsən isti küləklər yazın gəlişindən xəbər verir. Xalq arasında Toz çərşənbə, "Külək oyadan çərşənbə", "Küləkli çərşənbə" kimi tanınan Yel çərşənbəsi ilaxır çərşənbələrin üçüncüsüdür. İnama görə bu çərşənbədə oyanan yel, külək oyanmış suyu, odu hərəkətə gətirir.

Novruz bayramı öncəsi qeyd edilən ilaxır çərşənbə - Torpaq çərşənbəsidir. Bu çərşənbə xalq arasında "Axır çərşənbə", "Torpaq çərşənbəsi", "Çərşənbə-suri" adları ilə də tanınır.

Axır çərşənbədə tonqal qalanması, plov dəmlənməsi, səməni, xonça, qapı pusma, şam yandırma, bayramlaşma, fala baxma və bir çox adət-ənənələr var.

İnama görə Torpaq çərşənbəsi yetişəndə torpaq artıq əkinə hazır olur və ona toxum səpmək olar. Torpağın oyanmasını ulu əcdadlarımız ən şən, şux mərasimlər, nəğmələr, ayinlər ilə qarşılamışlar. Torpağın müqəddəsliyi və həyatvericilik gücü ondadır ki, digər yaradılmışlar da torpaqdan dirilik tapıb, inkişaf edir. Bitkilərin bitibcücərməsi timsalında digər canlılar aləminin torpağın bəxşedici gücü ilə yaranıb formalaşdığını əks etdirir.

# Maarifləndirici tədbir



Rayon icra hakimiyyətinin və rayon polis şöbəsinin təşkilatçılığı ilə Yemişanlı kənd tam orta



ümumtəhsil məktəbində təhsildən yayınma hallarının qarşısının alınması məqsədilə maarifləndirici tədbir keçirilmişdir. Müəllimlərin və valideynlərin də iştirak etdiyi tədbirdə təhsildən yayınma hallarının qarşısının alınması məqsədilə müəllim və valideynlər tərəfindən nəzarətin gücləndirilməsinin, profilaktiki söhbətlərin aparılmasının və təhsildən yayınan şagirdlərin davamiyyətinin təmin olunmasının vacibliyi vurğulanmış, uşaqların fiziki, mənəvi və psixoloji sağlamlığına zərərli olan vərdişlərdən uzaq olmaları üçün onların davranışlarına daimi nəzarətin vacibliyi diqqətə çatdırılmışdır. Tədbir qarşılıqlı fikir mübadiləsi şəklində davam etmişdir.

# Azərbaycançılıq ənənələrini yaşatmalıyıq

(Əvvəli 4-cü səhifədə).

- Adət-ənənələr söz yox ki, hər zamana görə dəyişir, müasirləşir. Ancaq elə adət-ənənələr var ki, dəyişilməyinə rəğmən öz milliliyini qoruyub saxlayır. Əlbəttə təbii haldır ki, keçmişin bütün adətlərini bu günə daşımaq yeknəsəklik sayılar. Cəmiyyət inkişaf etdikcə inkişaf etmiş ölkələrin adətləri də ətraf mühitə öz təsirini göstərəcəkdir. Ancaq çalışmaq lazımdır ki, əsrlərcə öz əhəmiyyətini itirməyən və millilik xüsusiyyətlərini qoruyub saxlayan adətlərimizi yeniləşsə də , özəlliyini qoruyub saxlayaq. Axı bu bizim tarixi keçmişimizdən bu günümüzə mirasdır.

***- Toylar necə başlanır və necə keçirilirdi?***

- Bu adətlər bir millətə xas olsa da, hər zonanın, bəzən hər məkanın özünəxas olması ilə fərqlənərdi. Bizim zonada oğul evləndirmə və qız köçürmə adətlərində iki nüans həmişə diqqət mərkəzində olardı. Qız və oğlanın bir-birini tanıması, sonra isə böyüklərin bu işə qarışması. Ya da ətraf aləmdən - qohum, qonşu, tanış adamların soy-kökünə baxaraq qız seçilməsi. Hər ikisində ağsaqqal və ağbirçəklərin fikirləri nəzərə alınardı. Əvvəlcə qadınlar qız evinə tanışlığa gedər, sonra elçilik; bəzən qız evinin "hə"sini almaq üçün bir neçə dəfə oğlan evi onlara qonaq gedər, məsləhətləşmədən sonra razılıq alınardı. Daha sonra nişan, "parçakəsdi" məclisləri keçirilərdi. Nişan məclisindən sonra qız evi "nişan qablarının" (xonça qabları) qaytarılması adı ilə oğlan evinə yaxın qohumları ilə, xonçalarla gedərdi. Bu isə oğlan evini görmək, ona uyğun cehiz verməyi qərarlaşdırmaq, həmçinin ailə və qohumları qismən tanımaq üçün keçirilən məclis idi. "Parçakəsdi" zamanı qıza alınan hədiyyələr, geyim və zinət əşyaları qız evinə aparılar və qız toyu keçirilərdi. Sonra "xınayaxdı" və nəhayət, toy məclisi qurulardı.

***- Şahid həkim, toylar necə keçirilərdi?***

- Toy məclisləri oğlan və qız ailələrinin öz həyətlərində qurulardı. Aşpazlar, camaata xidmət edənlər qohum-əqrabalardan seçilərdi. Gəlin günortaya kimi (başqa rayonlardan olarsa, bir gün əvvəldən) gətirilərdi. Gəlin gətirilərkən oğlan evinin təşkil etdiyi maşın karvanı musiqiçilər ilə birgə qız evinə gedərdilər. Bəy dostları ilə getsə də, gəlini qapıdan özü düşürməzdi, gəlini qardaşı evdən düşürərdi, həmçinin, gəlin toy məclisində (oğlan toyunda) oturmazdı. Sonralar bu adətlər dəyişdi, gəlini bəy özü ata evindən "Vağzalı" musiqisi sədaları ilə düşürür, bəzədilmiş gəlin maşınına gətirərdi. Çox zaman gəlin aparıldıqdan sonra bir axşam və səhəri günü də axşama kimi toy çalınardı. Məclisdə "yuxarı başda" ağsaqqallar və toya uzaq məkanlardan qonaq gələnlər, sonra cavanlar, sonra da qadınlar oturardı. "Bəy tərifi" keçirilər, bəyə hədiyyələr verilərdi. Hədiyyələr isə pul və bəyin boynuna, qoluna sərilən parçalar, baş örtükləri olardı. Gəlin gətirildikdən sonra da 3 gün xeyir məclisləri davam edərdi.

***- İndiki toy adətləri ilə əvvəlki adətlər arasında fərq barədə nə deyə bilərsiniz?***

- Bütün adət-ənənələrə yaşanılan dövr, zaman öz təsirini göstərir. Çünki zaman keçdikcə, inkişam etdikcə bəzi adətlər sıradan çıxır və zamanın tələbinə uyğun olmadığı üçün yalnız "köhnə" adamların xatirə və söhbətlərində qalır. Biz bununla barışmalı oluruq. Ancaq onu da qeyd etmək lazımdır ki, müasir toyların 80 faizi hazırda toylar üçün ayrıca tikilmiş restoranlarda keçirilsə də, milli adətlərimizi nəzərə almaq lazımdır. Təbii ki, restoran toylarına xas olan adətlər də başqadır. Burada yemək adətlərindən tutmuş geyim formaları, oyun "formaları" belə bambaşqadır. Təbii ki, yaşadığımız zamana uyğunlaşmalıyıq. Ancaq yaşadığımız zamana uyğun, öz maddi vəziyyətinə əsasən məclislər keçirilməlidir ki, toydan sonra uzun müddət gənc ailə və ya onların valideynləri "borc" ödəməsin, çətinliklər yaşamasın. Həmçinin müasir dövrdə də qız və oğlan tanışlığında, evliliyində ağsaqqal və ağbirçək fikri nəzərə alınmalıdır. Əgər nəzərə alınarsa, fikrimizcə boşanmalar( aliment hesabına övlada baxmaq fikri), övladları atalı-analı "yetim" qoymaq halları aradan qalxar.

***- Şahid həkim, yaşadığımız informasiya - texnologiya əsrinin adət ənənələrimizə mənfi təsirləri varmı?***

- Əlbəttə var. İnkişaf etmiş zamanın övladları bu inkişafdan həyatına müsbətmənada təsir edəcəklərdən daha düzgün istifadə etməlidir. Telefonlardan, oradakı ayrı-ayrı proqramlardan işinə, həyatına - ailəsinə uyğun və əhəmiyyətli olanlardan istifadə edilərsə, bu millilik və adət-ənənələrimizə xas olan xüsusiyyətlərin də yaşadılması deməkdir. Bax, düzgün tərbiyə, ağsaqqal və ağbirçəklərə hörmət və ehtiram nəzərə alınarsa, ailələr qurularkən onların öyüd-nəsihətləri, fikirləri nəzərə alınarsa, bu gün gündən-günə çoxalan ailə dağılmaları; bəzən ailəsi ola-ola övladlarını belə atıb, nəslinin adına xələl gətirəcək sosial səhifələrdən təsadüfi tanışlıqlarla evdən qaçma, ailəsini qoyub özünə daha "gözqamaşdırıcı" həyat, müasirlik, "tərz" axtarma halları baş verməz. O ailələrdəki körpə və gənclərin sabahkı həyat tərzi düşünülməlidir. Bu bizim xalqa vas olan adət deyil və ola da bilməz! Bir sözlə, toy adət-ənənələrini bayağılaşdırmamalı, xalqın keçmişindən miras qalan ənəələrimizin "kökünü" yaşatmalıyıq!

***- Şahid həkim,bu mövzumuz çox zəngindir,mövzunu qəzetimizin növbəti nömrələrində də davam etdirəcəyik! Bu müsahibəyə görə sizə təşəkkür edirik!***

**BIBIXANIM.**

# Bayram tədbiri keçirilib

Qəbələ rayon Tarix Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə Novruz bayramı münasibətilə "Baharın gəlişi - Novruz sevinci" adlı tədbir keçirilib. Tədbirdə çıxış edənlər xalqımızın qədim tarixini əks etdirən, milli adət və ənənələrimizi özündə birləşdirən Novruz bayramının tarixindən bəhs edərək, Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə Novruz bayramının dövlət səviyyəsində qeyd edilməsinin tarixi köklərə qayıdışın parlaq nümunəsi olduğunu diqqətə çatdırmışlar. Sonda Novruz bayramına həsr olunmuş videoçarx nümayiş olunub.

**Şəhla XƏLİLQIZI,**
**"Qəbələ səsi"nin ştatdankənar müxbiri.**




QƏBƏLƏ SƏSİ

qəzetinə

2026-cı ilin birinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 20 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ29AİİB 400400K9446609778149 VÖEN 4402717261*


# İTMİŞDİR

30.12.2008-ci il tarixdə Qeydiyyat № 2 ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Qəbələ rayon Qeydiyyat şöbəsi tərəfindən dövlət qeydiyyatına alınmış "Dəmiraparan" Sudan İstifadə edənlər Birliyinin **Dövlət Qeydiyyat Şəhadətnaməsi və Nizamnaməsi itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ rayon Kiçik Əmili kənd sakini **Ağayev Vəkil Əhmədiyyə oğluna** məxsus Ot və küləş bağlayan aqreqatın **texniki qeydiyyat talonu itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ rayon Çuxur Qəbələ kənd sakini **Məmmədov Elton Oktay oğluna** məxsus **şəxsiyyət vəsiqəsi itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ rayon Nohurqışlaq kənd sakini **Allahverdiyev İlkin Qismət oğluna** məxsus **sürücülük vəsiqəsi itdiyi üçün** etibarsız sayılır.


**Baş redaktor**
**Azad Məmmədov**

*TƏSİSÇİ:*
**Azad MƏMMƏDOV**



**ÜNVANIMIZ:**
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: 050 318 90 24
(024) 204-19-14
Ümumi: (024) 204-15-56
e-mail: gabalanews@mail.ru



Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyində 05.09.2025-ci il tarixdə DBF71BC4180C07 nömrəli media reyestri şəhadətnaməsi ilə qeydiyyatdan keçmişdir
«Kapitalbank»ın Qəbələ filialında hesab № AZ29AİİB 400400K9446609778149 VÖEN: 4402717261 Kod: 200491

«Qəbələ səsi» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1000*